**Biologiya**

**VII sinif üçün diaqnostik qiymətləndirmə vasitəsi**

**VI sinfin sonunda şagird:**

- canlılar aləmini öyrənən elm sahələrini fərqləndirir, canlıların quruluşunu, təsnifatını, rol və əhəmiyyətini izah edir;
- biologiyaya dair laboratoriya avadanlıqlarını fərqləndirir;
- bioloji proseslər və onun pozulma hallarını izah edir, sadə hesablamalar aparır;
- canlıların təsnifat sistemində insanın yerini müəyyənləşdirməklə onu digər canlılardan fərqləndirir;
- sağlamlığın qorunmasında bitki və heyvanların rolunu izah edir, dərman bitkilərini fərqləndirir;
- canlıların təbii mühitlə və bir-birilə əlaqəsini izah edir;
- bitki və heyvanlara qulluq qaydalarına əməl edir.

**Meyarlar:**

1. Canlılar aləmini öyrənən elm sahələrini fərqləndirir.
2. Canlıların quruluşunu izah edir .
3. Canlıların təsnifatını izah edir.
4. Laboratoriya avadanlıqlarını fərqləndirir.
5. Canlıların təsnifat sistemində insanın yerini müəyyənləşdirir.
6. Sadə hesablamalar aparır.
7. Bioloji proseslər və onun pozulma hallarını izah edir.
8. Sağlamlığın qorunmasında bitkilərin rolunu izah edir.
9. Dərman bitkilərini fərqləndirir.
10. Canlıların təbii mühitlə əlaqəsini izah edir.
11. Bitkilərə qulluq qaydalarına əməl edir.

**Sual və tapşırıqlar:**

1.Aşağıdakı canlılardan hansını **zoologiya** elmi öyrənir? (Meyar 1)






1 2 3 4

2**. Yarpaqların damarlanma növünü qeyd edin.** (Meyar 2)




1. ________________

2.________________

3.________________

**3. Cədvəlin müvafiq xanalarına sistmatik kateqoriyaları yerləşdirin.** (Meyar 3)

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Bitkilər | | | | | | | Aləm |
| Heyvanlar | | | | | | | Aləm |

**4. Aşağıdakı ifadələrdən hansı işıq mikroskopuna aiddir?** (Meyar 4)

a) Sadə quruluşlu böyüdücü cihazdır
b) On min, yüz min dəfələrlə böyüdür
c) Çərçivədən və böyüdücü şüşədən ibarətdir
d) 3600 dəfəyədək böyüdür
e) 2-25 dəfəyədək böyüdür

**5. İnsanın təsnifat sistemində yerini müəyyənləşdirin:** (Meyar 5)
**Aləm** - Heyvanlar
**Tip -**
**Sinif -**
**Dəstə -**
**Fəsilə -**
**Cins -** Homo (insan)
**Növ -**

**6. Əlverişli şəraitdə bir ilkin bakteriya neçə dəqiqədən bir bölünür?** (Meyar 6)

a) 40 dəq b) 80 dəq c) 20 dəq d) 30 dəq e) 60 dəq

**7. Aşağıdakılardan hansı virusların törətdiyi xəstəlikdir?**
1. Vərəm 2.QİÇS 3.brusellyoz 4.angina 5. Sibir yarası

**8. Hansı bitkilərdən iltihab əleyhinə dərman kimi istifadə olunur?** (Meyar 8)

**9. Dərman bitkilərinin altından xətt çəkin:** (Meyar 9)

*nanə, diffenbaxiya, aloe, itburnu,kaktus, kəklikotu, xlorofitium, çobanyastığı, kala, arum, ətirşah, bağayarpağı, zəfəran*

**10. Hansı sırada mühitin *cansız amilləri* verilmişdir? Bu amillərdən birinin bitkinin həyatında rolu haqqında yaz.** (Meyar 10)

A) bitki, heyvan, su
B) işıq, temperatur
C) torpaq, bakteriya, relyef
D) işıq, bakteriya, su
E) bakteriya, göbələk, heyvan

**12. Otaq bitkisinə qulluqla bağlı düzgün olanı seçin:** (Meyar 11)

- Otaq bitkisi ***qaynadılmış/otaq temperaturlu*** su ilə sulanmalıdır.
- Otaq bitkiləri ***yayda/qışda*** tez-tez sulanmalıdır.
- Əksər bitkilər ***işığa yaxın/kölgədə*** yerləşdirilməlidir.